შეფასებისა და გამოცდების ეროვნული ცენტრი

Müəllimin səlahiyyətinin təsdiqlənməsi
iyul, 2019

# Təsviri və tətbiqi incənət üzrə test

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Praktiki tapşırığa praktiki tapşırığa məxsus olan vərəqdə əməl edin. Praktiki tapşırığa (tapşırıq 26) əməl etmək üçün sizə karandaş, yazıpozan və karandaş itiləyən lazımdır.

Praktiki tapşırıq üçün lazım olan vərəqədə karandaşla işləyin! Karandaşdan yalnız bu tapşırığa əməl etmək üçün istifadə olunmasına yol verilir.

Testin maksimal xalı 60-dır.

Testə əməl etmək üçün 4 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

**№ 1-19-cu tapşırığın təlimatı** (Hər düzgün cavaba 1 xal verilir) **-** Hər tapşırığa dörd ehtimallı cavab verilir. Onlardan yalnız biri düzdür. Seçdiyiniz cavabı cavablar vərəqində aşağıdakı kimi qeyd edin: cavablar vərəqinin müvafiq xanasında –X işarəsini yazın. Elektron bukleti başqa heç bir qeydi, horizontal və ya üfüqi xətləri, müxtəlif işarələri qeydə almır. Əgər, cavablar vərəqində qeyd etdiyiniz cavabı yenidən düzəltmək istəyirsinizsə, X-lə qeyd etdiyiniz xananı bütövlüklə rəngləyin və sonra düzgün cavabın yeni variantını yazın (X işarəsini yeni xanada qeyd edin). Rənglədiyiniz cavabın yenidən seçilməsi qeyri-mümkündür.

1. **Şəkildə təqdim olunan memarlıq abidəsinin planı hansı arxitektura tipinə məxsusdur?**



ა) Trikonk;

ბ) Tetrakonk;

გ) Azad xaç;

დ) Çoxapsidli.

**2. Breygel tərəfindən yaradılmış məşhur rəngkarlıq kompozisiyası simvolik baxımdan nəyi əks etdirir?**



ა) İnsanların əməyinin ağırlığını;

ბ) Bir-birinə qoşulmuş insanların faciəli taleyini;

გ) İnsanların psixoloji tiplərini;

დ) İnsanların bir-birini dəstəkləməsini.

**3. Gürcü xristian arxitekturasında çoxapsidli tipin arxitektura nümunəsi hansıdır?**



ა) Svetisxoveli;

ბ) Nikordzminda;

გ) Alaverdi;

დ) Cvari.

**4. Paleoloqlar üslubunun rəssamlığı hansı xüsusiyyətləri ilə səciyyəvidir?**



ა) Təsvir müstəvivaridir, kontur rəsmi qaba və bucaqlıdır, fiqurların proporsiyaları pozulmuşdur, təsvirlərin formaları sadə və primitivdir;

ბ) Kompozisiya azad və dinamikdir, rəsm mükəmməl, proporsional və plastikdir, formalar realistik və ümumiləşdirilmişdir, kompozisiyalar detallarla hekayələrdən məhrumdur;

გ) Kompozisiya çoxfiqurludur, rəsm dinamik və sınıqdır, təsvirlər utrirləşdirilmişdir, formalar rəngkarlıqla modelləşdirilmişdir, məkan illüziyası yaradılır, kompozisiyada hekayələr detallarla inkişaf etdirilir;

დ) Təsvir qaba və maneralıdır, kolorit qurudur, kompozisiyalar həddindən artıq dekorativdir, monumental rəssamlıq öz xarakteri ilə dini rəsmlərə yaxınlaşır.

**5. Fotoda təqdim olunan skulptura kompozisiyasının müəllifi kimdir?**



ა) Antonio Kanova;

ბ) Lorentso Bernini;

გ) Mikelancelo Buonarotti;

დ) Oqiust Roden.

**6. Ofiza məbədinin relyefi hansı bədii xüsusiyyətləri ilə səciyyəvidir?**



ა) Relyef kompozisiyası anatomiyanı bilmək əsasında yaradılmış insanların həcmi ilə təsvirlərdir;

ბ) Relyef kompozisiyası müstəvi-xətvaridir, təsvirlərin proporsiaları pozulmuşdur və ekspressivdir;

გ) Kompozisiyasının dinamizmi drapirovka təsvirinin özünəməxsusluğunu yaradır;

დ) Fiqurların üzləri realistikdir, usta personajların portretvari səciyyəsini təklif edir.

.

**7. Fotoda təqdim olunan dekorativ kompozisiya hansı məbədin tərtibatı sisteminə daxil edilmişdir ?**



ა) Gelati;

ბ) Svetisxoveli;

გ) Samtavro;

დ) Samtavisi.

**8. Fotoda hansı məşhur tikintinin təsvir edildiyini müəyyənləşdirin.**



ა) Budapeşt parlamentinin binası;

ბ) Santa Maria Del Piores məbədi;

გ) Palasso Dukale;

დ) Versal.

**9. Verilmiş fraqment üzrə incəsənət nümunəsinin müəllifinin adını çəkin.**



ა) Lorentso Qiberti;

ბ) Filippo Bruneleski;

გ) Alberto Cakometti;

დ) Andrea Verokio.

**10. Verilmiş şəkildə hansı dövrün yaxud rəssamlıq cərəyanının nümunəsi təqdim edilmişdir?**



ა) Qotika;

ბ) Neoklassisizm;

გ) Barokko;

დ) Romantizm.

**11. Fotoda təqdim edilmiş şəklin müəllifi kimdir?**



ა) Lado Qudiaşvili;

ბ) Merab Abramişvili;

გ) İrakli Qamrekeli;

დ) Serqo Kobuladze.

**12. Təqdim olunan incəsənət nümunəsi üçün hansı bədii xüsusiyyətlər *<u>səciyyəvi deyildir?</u>***



ა) Dekorativ bəzəyin simmetrik, müvazinətli xarakteri;

ბ) Tsvara texnikası ilə yaradılmış dekorativ bəzək;

გ) Stilləşdirilmiş təsvirlər;

დ) Döymə ornamentin rəngarəngliyi.

**13. Təqdim olunan incəsənət nümunəsi hansı bədii cərəyana məxsusdur ?**



ა) Futurizmə;

ბ) Povizmə;

გ) Ar-Nüvoya;

დ) Pop-Arta.

**14. Nyu-Yorkun Solomon Quqenhaym adına Müasir İncəsənət Muzeyinin  arxitektoru kimdir?**



ა) Zaha Hadid;

ბ) Frenk Lloyd Rayt;

გ) Norman Foster;

დ) Le Korbuzye.

**15. Yan Vermerin yaratdığı "Su bardağı və qadın" rəsmi üçün hansı bədii üsul *<u>səciyyəvi deyildir?</u>***



ა) Parlaq fakturalı yaxma;

ბ) Kompozisiyanın kadrlılığı;

გ) Ön planın detallaşdırılması;

დ) Gümüşvari kolorit.

**16. Təqdim olunan incəsənət nümunəsinin detalları üzrə əsərin müəllifinin adını çəkin.**



ა) Anri Matis;

ბ) Pablo Pikasso;

გ) Xuan Miro;

დ) Edvard Munk.

**17. Təqdim olunan incəsənət nümunəsində hansı izah xəttin özünəməxsusluğunu əks etdirir ?**





ა) Birinci şəkildə xətt yüngül kontrast effekti yaradılmasına xidmət edir, ikinci şəkildə isə xətdən sahənin illüziyasını yaratmaq üçün istifadə olunmuşdur?

ბ) Birinci şəkildə xətt təsvir formasındadır, ikinci şəkildə isə səth krujevavari, yüngül faktura yaratmaq üçün istifadə olunur;

გ) Birinci şəkildə xətt simmetriyanın və balansın saxlanmasına xidmət edir, ikinci şəkildə isə kölgə effekti yaradır;

დ) Birinci şəkildə xətt neqativ məkanın müəyyənedicisidir, ikinci şəkildə isə illüzor halında toplanış nöqtəsinin yaradılması vasitəsidir.

**18. Şəkildə verilmiş gürcü orta əsrlərinin döymə incəsənət nümunəsi hansı bədii-üslub özünəməxsusluğu ilə səciyyəvidir?**



ა) Yüksək relyeflə işlənilmiş simmetrik kompozisiyada fiqurlu təsvir həcmli və proporsionaldır;

ბ) Yüksək relyeflə işlənilmiş plastik fiqur və mükəmməl ornament motivlərinin sintezi ilə usta gürcü zərgərliyinin ən gözəl nümunələrindən birini yaratmışdır;

გ) Xətvari, dekorativ xarakterli, aşağı relyeflə işlənilmiş təsvirlər utrirləşdirilmiş forması ilə seçilir;

დ) Yüksək relyeflə işlənilmiş beldən yuxarı uzadılmış fiqurun formalarının utrirləşdirilməsi ekspressiyadan daha çox manerlik yaradır.

**19. XX əsrin bədii üslublarına və cərəyanlarının ümumi adlarına hansı termin uyğun gəlir və incəsənətdə ənənələr və yeni yollar axtarır?**

ა) Qlobal;

ბ) Avanqard;

გ) Futuris;

დ) Antaqonist.

**№ 20-25-ci tapşırıqlar** (Hər düzgün cavaba 1 xal verilir) ***„Düzgündür-səhvdir“***

**Tapşırığın təlimatı** – verilmiş müddəalarla diqqətlə tanış olun - əgər müddəanı düzgün sayırsınızsa, müvafiq hücrəni işarələyin. Belə hallarda şərh tələb olunmur. Əgər müddəanı səhv sayırsınızsa, müvafiq hücrəni qeydə alın və verilmiş sahədə düzdün formulu yazın.

**Qeyd:** Əgər formulun səhv olduğunu düşünür və sübutda verilmiş izahın öz-özlüyündə düzgün formalaşdırıldığını hesab edirsinizsə, ancaq verilmiş terminin yaxud sözün izahı yoxdursa, izahı dəyişməz qoyun və həmin izahat üçün müvafiq termin yaxud söz axtarın.

**Nümunə:**



**20. XVII əsrin cərəyanı Avropa incəsənətində antik mədəniyyətin təsirini səciyyələndirir və renessansdır.**

**21. Təqdim olunan mifoloji personaj qədim Misir mədəniyyətinin nümunəsidir.**



**22. Təqdim olunan şəkildə formaların utrirləşdirilməsi vasitəsilə rəssamlar təsvirin ekspressiyasını yaradırlar.**



**23. Dəzgah rəssamlığında natürmort müstəqil bədii janr kimi XX əsrin başlanğıcında yaradılmışdır.**

**24. Renessans dövrünün rəssamlığı üçün güclü hərəkətdən yorulmuş bədənlə həyata keçirilmiş kompozisiyanın dinamizmi və kontrastlı işıqlandırılması yaradılmışdır.**

**25. İkiyanlı damla əhatə edilmiş binanın fasadını təşkil edən üçbucaqlı sahə fronton adlanır.**

**№ 26-ci Tapşırıq** (5 xal)**.** ***Praktiki tapşırıq***

**Təlimat –** Nümunə kimi Anri Matisin qrafik oçerki verilmişdir. Nümunəyə görə müstəvivari təsvirin həcm şərhini yaradın. Müxtəlif fakturalı əşyaları tonallıq vasitəsi ilə fərqləndirin. Kompozisiya bölgüləri prinsiplərini nəzərə almaqla təsviri müvafiq olaraq şəkil müstəvisinə yerləşdirin. Tapşırığa praktiki işə məxus olan vərəqdə əməl edin.



**№ 27-31-ci Tapşırıq** (Hər tapşırığa 1 xal verilir). **Xronologiyanın müəyyən edilməsi.**

**Tapşırığın təlimatı** – Bədii cərəyanları, rəsmləri, arxitektura və incəsənət nümunələrini onların yaradıldığı dövrə görə (qədimdən ən yeniyə doğru) yerləşdirin. Cavabları cavablar vərəqində verilmiş cədvələ yazın. Nəzərə alın ki, cədvəldə ancaq seçilmiş vahidin müvafiq rəqəmi yazılır.

**27. Şəkilləri onların yaradıldığı dövrə görə yerləşdirin:**

**1.**



**2.**



**3.**



**4.**



**28. Təqdim edilmiş arxitektura nümunələrini  onların yaradıldığı dövrə görə yerləşdirin:**

**1.**



**2.**



**3.**



**4.**



**29. Bədii cərəyanları xronoloji ardıcıllıqla yerləşdirin:**

1. Postimpressionizm;

2. Klassisizm;

3. Op-Art;

4. Siurealizm.

**30. Təqdim olunan tarixi şəxslərin portretlərini onların yaradıldığı dövrə görə yerləşdirin:**

**1.**



**2.**



**3**




**4.**



**31. Avtoportretləri onların yaradıldığı dövrə görə yerləşdirin:**

**1.**




**2.**



**3**



**4.**



**№ 32-ci tapşırıq** (3 xal)**. Uyğunluğun müəyyən edilməsi**

**Tapşırığın təlimatı- A** sahəsində verilmiş təsviri incəsənətin texnikalarını **B** sahəsində verilmiş incəsənət nümunələri ilə uyğunlaşdırın. Nəzərə alın ki, bir növə yalnız <u>bir nümunə</u> uyğun gəlir.

| | | | | | |
|---|---|---|---|---|---|
| **A** | 1. Oport | 2. Pastel | 3. Freska | | |
| **B** | ა  | ბ.  | გ.  | დ.  | ე.  |

**№ 33-cü tapşırıq** (3 xal)**.** ***Uyğunluğun müəyyən edilməsi***

**Tapşırığın təlimatı- A** sahəsində verilmiş bədii cərəyanları **B** sahəsində verilmiş təsviri incəsənət nümunələri ilə uyğunlaşdırın. Nəzərə alın ki, bir cərəyana yalnız <u>bir nümunə</u> uyğun gəlir.

| **A** | **B** |
|---|---|
| 1. Romantizm<br><br>2. Ar Nüvo<br><br>3. Simvolizm | ა.  ბ.  გ. <br>დ.  ე.  |

**№ 34-cü tapşırıq** (4 xal). **Bəzi incəsənət nümunələri Bibliyanın süjetlərinin şərhi kimi düşünülmüşdür. Təqdim olunan şəkillərdən bir incəsənət nümunəsini seçin və onu konkret süjetlə əlaqələndirin. Əsərləri təhlil edin və müəyyənləşdirin:**

**1.**



**2.**



**3.**



**4.**



**ა.** Sizin seçdiyiniz adı çəkilən süjetlə əlaqəli olan təsviri və kontekstual özünəməxsusluqlar;

**ბ.** Müəllif əsərin ideyasını hansı bədii üsullar vasitəsilə əks etdirir?

**№ 35-cü tapşırıq** (15 xal). ***İncəsənət nümunəsinin təsviri və təhlili:***
Aşağıda verilmiş incəsənət nümunəsini düşünün, təhlil edin və qiymətləndirin.



**Tapşırığı göstəriş üzrə əməl edin:**

**35.1** (3 xal) Kompozisiyanı təsvir edin və səciyyələndirin; verilmiş kompozisiya hansı janra məxsusdur? Material və texnika əsasında təsviri incəsənətin hansı sahəsinin nümunəsinin təqdim olunduğunu aşkar edin;

**35.2** (3 xal) Müəllifin bədii xarakterin yaradılması üçün hansı təsvir vasitələri və üsullarından istifadə etdiyini təhlil edin və qısa formalaşdırın;



**35.3** (3 xal) Bədii üslub səciyyələri əsasında əsərin yaradıldığı tarixi müəyyən edin, təqdim olunan incəsənət nümunəsinin hansı ölkəyə məxsus olduğunu müəyyənləşdirin, müəllifin adını çəkin;

**35.4** (3 xal) Əsəri qiymətləndirin – öz fikrinizi bildirin, fikrinizi müzakirə edin və əsaslandırın;

**35.5** (3 xal) Bədii təsirləri və əsərləri tarixi-mədəni və s. baxımdan. müzakirə edin.